**Azərbaycan Respublikasının**
**AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS**
**of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

№ 10-1/01-1/023 « 06 » mart 2023 il/year

***Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşları və üzvləri olan xanımlara 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə***
***T Ə B R İ K***

***Hörmətli xanımlar!***

*Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və şəxsən öz adımdan Sizi – 8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar diləyirəm.*

*Azərbaycan qadınları milli varlığımızı özündə əks etdirən dəyərlərimizin qorunub saxlanılmasında müstəsna rol oynayır, ölkənin iqtisadi, ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir, dövlətin idarə olunmasında fədakar xidmətlər göstərirlər.*

*Möhtərəm Prezidentimizin müdrik rəhbərliyi, misilsiz cəsarəti və yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan düzgün istiqamətdə günü-gündən irəliləyir və dünyanın əksər ölkələrinə nümunə ola biləcək iqtisadi, sosial uğurlara öz imzasını atır. Prezidentimizin görkəmli dövlət rəhbəri olaraq siyasi uzaqgörənliklə həyata keçirdiyi əhəmiyyətli işlər, xalqa bəxş etdiyi böyük ümid və dayaq ölkəmizin hər sahədə zəfərini təmin edir.*

*Əziz xanımlar!*

*Çox xoşdur ki, Sizlər ölkəmizdə iqtisadiyyatın möhkəmləndirilməsi naminə hesabatlılığın və şəffaflığın artırılması istiqamətində vəzifə borclarınızı şərəf və ləyaqətlə yerinə yetirirsiniz.*

*Ümidvaram ki, Siz xanımlar xalqımıza xas milli mənəvi dəyərləri bundan sonra da yaşadacaq, tükənməz intellektual potensialınızla gündən-günə yeniləşən respublikamızın çiçəklənməsi naminə töhfələrinizi əsirgəməyəcək, möhtərəm Prezidentimizin Azərbaycan auditorlarının qarşısına qoyduğu ölkə iqtisadiyyatının daha da şəffaflaşması, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi işinə öz töhfənizi verəcəksiniz.*

*İnanıram ki, Auditorlar Palatasının üzvü olan auditor xanımları və əməkdaşları bundan sonra da Azərbaycan auditinə göstərilən diqqət və qayğıya cavab olaraq ölkə rəhbərliyinin etimadını doğruldacaq, dövlətimizə, iqtisadiyyatımızın tərəqqisinə və mənsub olduqları şərəfli və məsul auditor peşəsinə sədaqətlə xidmət edəcəklər.*

***Bayramınız mübarək, əziz xanımlar!***

***Dərin hörmətlə,***

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic

***Vahid NOVRUZOV***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***